*Cari ilin doqquz ayının yekunları*

# Nərimanov rayonu: Layihələr uğurla icra olunur

**Oktyabrın 21-də Bakının Nərimanov rayonunda 2015-ci ilin 9 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş toplantı keçirildi.**

Yığıncağı giriş sözü ilə açan **rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev** vurğuladı ki, həmişə olduğu kimi, cari ilin ötən aylarında Nərimanov rayonunda inkişaf tempi davam etmiş, sosial-iqtisadi vəzifələr uğurla həyata keçirilmiş, ölkə başçısının qarşıya qoyduğu vəzifələrin icra olunmasına maksimum səy göstərilmişdir.

Respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində Bakı şəhərinin aparıcı rayonlarından olan Nərimanov rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülmüş və bu işlər hazırda da uğurla davam etdirilir.

2015-ci ilin doqquz ayının yekunlarına görə rayon iqtisadiyyatının əsasını təşkil edən sənayenin dinamik inkişafı davam etdirilmiş və bu müddət ərzində xidmətlər də daxil olmaqla 1 milyard 792 milyon manatlıq məhsul istehsal olunmuşdur. 2015-ci ilin doqquz ayı ərzində istehlakçılara 1 milyard 938 milyon manatlıq və ya bütün sənaye məhsulunun 108,1 faizi qədər sənaye məhsulu göndərilmişdir. İstehsal olunmuş sənaye məhsulunun həcmində dövlət sektorunun xüsusi çəkisi 88,6 faiz təşkil etmişdir.

Ötən dövr ərzində sənaye kompleksində işləyənlərin sayı 12478 nəfər təşkil etmiş, onların orta nominal əmək haqqı 5,3 faiz artaraq 535,8 manata çatmışdır.

Yeni müəssisələrin yaradılması, mövcud müəssisələrin fəaliyyətinin bərpa edilməsi nəticəsində 2015-ci ilin 9 ayı ərzində 2982 daimi iş yerləri yaradılmışdır.

Cari ilin 9 ayı ərzində nəqliyyat sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 52 milyon 29,0 min manatlıq xidmət göstərilmişdir ki, əvvəlki ilkin müvafiq dövrünə nisbətən 83 faiz artım süräti qeydə alınmışdır.

Ötən dövr ərzində bütün mənbələr hesabına əsas kapitala 230 milyon 57 min manatlıq investisiya qoyulmuşdur ki, bunun da əsas hissəsi iqtisadi və sosial hissənin inkişafına yönəlmişdir.

Ticarət dövriyyəsinin və pullu xidmətlərin də həcmi xeyli artmışdır. Ötən dövr ərzində ticarət şəbəkələri tərəfindən əhaliyə 920 milyon 159 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 20,0 faiz çox istehlak malları satılmışdır. Ötən dövr ərzində xidmət müəssisələri tərəfindən əhaliyə 211 milyon 694 min manatlıq pullu xidmətlər göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 112,0 faiz təşkil etmişdir.

Ötən dövr ərzində rayonda geniş abadlıq və quruculuq işləri həyata keçirilmişdir. Belə ki, "Gənclik" metrostansiyasının ətrafında yerləşən binaların milli memarlıq üslubunda yenidən qurulması və yeni yeraltı piyada keçidlərinin inşa olunması, Ziya Bünyadov prospektinin yenidən qurulması, Olimpiya Stadionunun tikintisi ilə əlaqədar yeni yol qovşaqlarının və yeraltı yol ötürücülərinin salınması, şəhərin baş planına uyğun olaraq digər infrastruktur layihələrin həyata keçirilməsi işləri uğurla yerinə yetirilmişdir.

İlk Avropa Oyunlarının keçirilməsinə hazırlıqla əlaqədar ölkə başçısı tərəfindən qarşımıza qoyulan vəzifələrin icrası təmin olunmuşdur.

Bu gün Azərbaycanla Rusiya arasında münasibətlərin inkişafı xalqlararası tarixi bağlılığı və dostluğu daha da dərinləşir. Sevindirici haldır ki, iki dövlətin dostluq əlaqələrindən irəli gələrək uzun illərdən bəri qardaşlaşmış Bakının Nərimanov rayonu ilə Həştərxan vilayətinin Nərimanov şəhəri arasında da iqtisadi-siyasi və mədəni sahədə sıx əlaqələr bu gün də daha da inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tapşırığı ilə, Həştərxan vilayətində Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə tərəfimizdən bir sıra genişmiqyaslı layihələr həyata keçirilmişdir.

Bu cür dinamik inkişafın göstəricisi və iki dövlətin dostluq əlaqələrinin bariz nümunəsi kimi, Həştərxan vilayətinin mərkəzində yerləşən 3,5 hektar ərazisi olan parkda nümunəvi abadlıq işləri aparılaraq, ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi ucaldılmış, Bakı küçəsində yerləşən 11 nömrəli orta məktəbə ulu öndər Heydər Əliyevin adı verilmiş, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə həmin məktəbin əsas korpusu genişmiqyaslı rekonstruksiya olunmuş, müasir standartlara uyğun iki yeni korpus inşa edilmiş və şagirdlərin təhsilinin lazımi səviyyədə təşkil edilməsi üçün bütün şərait yaradılmış, mebel və texniki avadanlıqlarla təchiz edilmişdir. Həyata keçirilən layihələrin davamı olaraq, Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Azərbaycan və Rusiya Dostluq körpüsünün və Heydər Əliyev parkında yaradılmış "Meçta" uşaq əyləncə şəhərciyinin və eyni adlı uşaq kafesinin, Müqəddəs Vladimir məbədinin önündəki meydanda Knyaz Vladimirin abidəsinin və abidənin yerləşdiyi ərazidə salınmış parkın təntənəli açılış mərasimləri keçirilmiş, həmçinin Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Voljskiy küçəsində "Dostluq" uşaq bağçasının təməli qoyulmuşdur.

Cari ilin 9 ayı ərzində dəfələrlə Rusiya Federasiyasının Həştərxan vilayətinin nümayəndə heyətinin ölkəmizə, eyni zamanda Azərbaycan nümayəndə heyətinin Həştərxan vilayətinə rəsmi və işgüzar səfərləri baş tutmuşdur. Belə ki, yanvar






ayında Həştərxan şəhərindəki Heydər Əliyev adına 11 nömrəli ümumtəhsil məktəbinin bir qrup şagirdləri Bakı şəhərinə gəlmiş, respublikamızın, o cümlədən paytaxtımızın görməli yerləri, tarixi abidələri ilə tanış olmuşlar. Mart ayında Həştərxan vilayətinin Beynəlxalq və Xarici İqtisadi Əlaqələr naziri D.Afanasyevin, aprel ayında Rusiya Federasiyasının Həştərxan vilayətinin vitse-qubernatoru, hökumətin sədri K.Markelovun başçılıq etdiyi rəsmi nümayəndə heyətinin və "Bakı-2015" birinci Avropa Oyunlarının açılış mərasimində iştirak üçün Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru cənab A.Jilkinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına rəsmi və işgüzar səfərləri baş tutmuş, səfərlər çərçivəsində Həştərxan vilayəti rəhbərliyi və nümayəndə heyəti ilə Nərimanov Rayon İcra Hakimiyyətində keçirilən görüşlərdə bu ilin oktyabr ayında Həştərxan şəhərində keçiriləcək Azərbaycan mədəniyyəti günləri ilə əlaqədar təşkilati məsələlər müzakirə olunmuş, ölkələrimiz arasındakı ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərinin, sosial-iqtisadi və mədəni əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi önə çəkilmiş, habelə dövlətimiz tərəfindən Həştərxan şəhərində perspektivdə həyata keçiriləcək layihələr barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Bu il sentyabrın 17-18-də Həştərxanda keçirilmiş I Xəzər media forumunda Azərbaycan nümayəndə heyətinin tərkibində Nərimanov rayonunun nümayəndələri də iştirak etmişlər.

Həmçinin 30 sentyabr tarixində Yekaterinburqda keçirilmiş VI Rusiya-Azərbaycan Regionlararası Forumuna Azərbaycan nümayəndə heyətinin tərkibində Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev də qatılmış və sözügedən forumda məzmunlu çıxışı ilə yadda qalmışdır.

Rayon Sukanal İdarəsinin Su Şəbəkələri və Qurğularının İstismarı Xidməti tərəfindən cari ilin 9 ayı ərzində 277 ədəd nasos, 185 ədəd mühərrik və 100 ədəd siyirtmə təmir olunmuş, 686,7 p.m. su və 153 p.m. kanalizasiya borusu dəyişdirilmiş, 30 ədəd nasos və 40 ədəd siyirtmə dəyişdirilmiş, 21 ünvanda su anbarları yuyulub zərərsizləşdirilmişdir.

Nərimanov Rayon Qaz İstismar Sahəsi tərəfindən yeraltı və yerüstü qaz kəmərlərinə profilaktiki xidmət göstərilmişdir.

2015-ci ilin 9 ayı ərzində təhsil və səhiyyə sahəsində də işlər davam etdirilmişdir. 2014/2015-ci tədris ilində Nərimanov rayonunun orta təhsil müəssisələrində 23 918 şagird təhsil almışdır. Bunlardan 2136 nəfəri ümumi orta təhsil haqqında şəhadətnamə, 1853 nəfəri isə tam orta təhsil haqqında attestat almışdır. Məzunlardan 109 nəfəri fərqlənməyə layiq görülmüşdür. Rayon üzrə 4 nəfər qızıl medala layiq görülmüşdür. (2014-cü ildə qızıl medala 5 nəfər layiq görülmüşdür).

Ötən müddət ərzində əlamətdar günlərlə bağlı bir sıra tədbirlər keçirilmişdir.

Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2015-ci ilin 9 ayı ərzində Dövlət Gənclər Siyasəti, kütləvi bədən tərbiyəsi və idman sahələri üzrə 72 tədbir həyata keçirilmiş və bu tədbirlərdə 10470 nəfər gənc və idmançı iştirak etmişdir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması istiqamətində respublika Prezidentinin fərman, sərəncam və tapşırıqlarını rəhbər tutaraq rayonun xidmət sahələri və idarələri tərəfindən ardıcıl tədbirlər həyata keçirilmişdir.

Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi sosial sahədə qəbul edilmiş dövlət proqramlarının icrasını həyata keçirmişdir.

9 ay ərzində Məşğulluq Mərkəzinə 244 nəfər qadın olmaqla 1319 nəfər işaxtaran vətəndaşlar müraciət etmişdir ki, onlardan da 745 nəfəri müxtəlif iş yerləri ilə təmin olunmuşdur.

2015-ci ilin 9 ayı ərzində Nərimanov Bələdiyyəsi rayon əhalisinin maddi rifah halının yüksəldilməsi, aztəminatlı ailələrin sosial durumlarının yaxşılaşdırılması, küçə və məhəllələrin abadlaşdırılması istiqamətində bir çox səmərəli işlər görmüşdür.

Rayon rəhbərliyi tərəflndən 2015-ci ilin 9 ayı ərzində yerlərdə keçiriləcək qəbulların təsdiq olunmuş qrafikinə əsasən 20 səyyar qəbul və görüş keçirilmişdir. Qəbullar müəssisə və təşkilatlarda, məcburi köçkünlərin məskunlaşdığı yataqxanalarda, inzibati və inşası yarımçıq qalmış binalarda, habelə rayonun ayrı-ayrı yaşayış sahələrində, əhalinin mədəni-kütləvi tədbirlər otağında və s. yerlərdə keçirilmişdir. Keçirilmiş qəbullarda rayon sakinləri, əmək kollektivlərinin üzvləri, məcburi köçkünlər rayon rəhbərliyi tərəfindən qəbul edilmişlər. Ötən dövr ərzində keçirilmiş 20 səyyar görüş və qəbullarda 2038 nəfər vətəndaş iştirak etmişdir.

Yığıncaqda "Polad Burazları" ASC İdarə Heyətinin sədri Zakir Nəsirov, rayon Su-Kanal İdarəsinin rəisi Əhliman Mənsurov, 291 nömrəli Ekologiya Liseyinin direktoru Sevinc Orucova, iş adamı Xudu Rzayev və başqaları çıxış etdilər.

Yığıncağı rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev yekunlaşdıraraq vurğuladı ki, ilin qarşıdakı aylarında rayonda müsbət irəliləyişə nail olunacaq və uğurlu nəticələrə imza atılacaqdır.

**Qədir ASLAN,**
**"Respublika".**